iki sahil

# Salam, Cavid əfəndi!






**Azərbaycanda ədəbi romantizm janrında yazdığı əsərləri ilə dünya ədəbiyyatına qiymətli incilər bəxş edən Hüseyn Cavidin möhtəşəm abidəsi önündə şairin anadan olmasının 137 illik yubileyinə toplaşan cavidsevərlər söz sənətinin ustadını bu sözlərlə salamladılar.**

Sevənlərini söz qüdrətinin, təxəyyülünün əbədiyyət rəmzi olan, ətrafında "daşlamış pərvanəyə" dönən "personajları" ilə "qarşılayan" şair yenə də "düşüncəli idi." "Nə eşq olaydı, nə aşiq" deyən Cavid əfəndi əslində Vətən, xalq, türkçülük eşqi ilə yanan ən böyük aşiq idi. "Mənim Tanrım gözəllikdir, sevgidir" sözləri ilə hər kəsi həyatın gözəlliklərindən zövq almağa çağıran ulu Cavid üçün şərdən, böhtandan, iblisdən uzaq durmaq, xeyirlə şərin savaşında haqqın, ədalətin qələbəsi insanlığın, bəşəriyyətin ən böyük mənəvi sərvətidir.

Yasamal Rayon İcra Hakimiyyətinin, YAP Yasamal rayon təşkilatının, Hüseyn Cavid Ev Muzeyinin birgə təşkilatçılığı ilə keçirilən tədbiri giriş sözü ilə açan Milli Məclisin deputatı, akademik İsa Həbibbəyli bildirdi ki, hər il oktyabrın 24-də dahi şairin abidəsi önündə mərasim keçirmək, cavidsevərlərin dahi şairlə görüşü artıq ənənəyə çevrilib:

- Hüseyn Cavid Azərbaycan ədəbiyyatında XX əsrin əvvəllərində romantik ənənəni təkmilləşdirən görkəmli söz ustadıdır. Nizaminin, Füzulinin, Nəsiminin müraciət etdikləri romantik bədii metodu Hüseyn Cavid yaradıcılığı ilə birləşdirərək romantizm ədəbi cərəyanı səviyyəsinə yüksəltdi. Azərbaycan ədəbi mühitində tanınmış klassiklər yaradıcılıqlarında bu cərəyana xüsusi yer vermişlər. Romantizm ədəbi cərəyanının zirvəsində dayanan Hüseyn Cavid yaradıcılığı xüsusilə zəngin və fərqlidir. Şeir ilahisi kimi tanınan dahi şair Azərbaycan romantizmini dramaturgiya sahəsində də "sınamış", zəngin irs qoyub getmişdir. Onun bədii təfəkkürünün məhsulu olan "İblis"i, "Şeyx Sənan"i, "Xəyyam"ı, "Azər"i... Azərbaycanın ədəbi tarixində əvəzsiz yaradıcılıq nümunəsidir. Ədəbiyyata yeni meyillər gətirməklə gözəlliyə vurğunluğunu ruhən hiss edən şair üçün Vətən, xalq məfhumu yaradıcılığının zirvəsində dayanan ilahi varlıqdır.

Respublikamızda ilk dəfə olaraq şairin əsərlərinin iyirmi cildliyinin hazırlanmasını cavidşünaslığa töhfə adlandıran akademik bildirdi ki, şairin gələn il qeyd olunacaq doğum günündə oxuculara Hüseyn Cavid əsərlərinin daha on cildi təqdim olunacaq. Cavid ölkəmizdən kənarlarda da sevilir, oxunur. İstanbulda tamaşaçı rəğbəti qazanan "İblis" hazırda Serbiyada serb dilində tamaşaya hazırlanır.

"Hüseyn Cavid yaradıcılığına əsl qiyməti ulu öndər Heydər Əliyev verib" söyləyən İsa Həbibbəyli bildirdi ki, Ümummilli Liderin 1981-ci ildə dahi şairin 100 illiyinin keçirilməsi ilə bağlı imzaladığı Sərəncam repressiya qurbanlarından olan böyük ədibin real, siyasi bəraəti idi. O dövrdən sonra Cavid yaradıcılığı geniş mənada tədqiq olundu, öyrənildi, əsərləri tamaşalara qoyuldu. Akademik vurğuladı ki, imperiyanın sərt qanunlarını, Sibirin şaxtasını Vətəninə məhəbbəti, Cavid yaradıcılığına heyranlığı ilə sındıran Ulu Öndər tarixdə daha bir "ilkə" imza atdı. Bütün çətinliklərə baxmayaraq yad torpaqlarda uyuyan şairin ruhu Ulu Öndərin qətiyyəti sayəsində doğulduğu Vətən torpağında rahatlıq tapdı.

Yasamal Rayon İcra Hakimiyyəti başçısının müavini Təravət Muradova filosof, romantik şair Hüseyn Cavidin abidəsinin bu rayonda ucaldılmasını, onun adını daşıyan əzəmətli prospekti bu ərazidə yaşayanlar üçün fəxr adlandırdı. Bildirdi ki, ölməz şair Cavid arzularının həyata keçirildiyi üçün ruhən rahatlığını Vətən torpağına dönüşü ilə tapdı.

Akademik Teymur Kərimli Cavid əsərlərinin tədqiqatı istiqamətində davam etdirilən elmi işlərin hər birini cavidşünaslığa töhfə adlandırdı. Nəsiminin 650 illik yubileyinə hazırlıq göründüyü bu günlərdə Cavidin xatirəsinin yüksək səviyyədə anılması Prezident İlham Əliyevin ədəbiyyata, elmə, mədəniyyətə göstərdiyi diqqət, Azərbaycan xalqının öz övladlarına verdiyi dəyərdir:

- Nəsimi kimi Cavidin də həyatı, taleyi çətin olub. Amma qədirbilən ölkəmizdə klassiklərimizə, sənətkarlara daim qiymət verilib. Bunu Cavid yaradıcılığına verilən dəyər, oxucu məhəbbəti də təsdiqləyir.

Hüseyn Cavidin Sibir çöllərində əbədiyyətə qovuşan nəşinin daim həsrətində olduğu doğma yurduna gətirilməsində əsl vətənpərvərlik göstərən nümayəndə heyətinə başçılıq edən Həmid Cəfərov o günlərdə keçirdiyi həyəcanlı anları xatırlatdı, ulu öndər Heydər Əliyevin fədakarlığından söz açdı:

- O illərdə Hüseyn Cavidin nəşinin Azərbaycana gətirilməsi çoxlarına əlçatmaz görünürdü. Amma sənətə, sözə qiymət verən Ulu Öndər qətiyyəti ilə bu əlçatmazı reallaşdırdı. Şairlə vidalaşmağa gələnlər Hüseyn Cavidin "Kəssə hər kim tökülən qan izini, qurtaran dahi odur yer üzünü" misralarını belə ifadə edirdilər: "Gətirsə hər kimsə Sibirdən Cavidi, ən dahi insanıdır o, yer üzünün." O zaman Ulu Öndər xalqına, Azərbaycanın görkəmli yazarlarına olan sevgisi ilə Kremlin məsul şəxslərini inandırıb sübut etdi ki, Azərbaycan xalqının dahi oğlu Hüseyn Cavid repressiya qurbanlarındandır. Xalq bəraət almış oğlunun Vətənə qayıtmasını istəyir. SSRİ məkanında yeganə hal idi ki, Ulu Öndərin nüfuzu, hörməti sayəsində 41 ildən sonra Cavid doğma torpağına qovuşaraq ruhən rahatlıq tapdı. Yaxşı yadımdadır, 1983-cü ilin bu tarixində Rusiyanın İrkutsk şəhərində Cavidin 100 illik yubileyi keçirildi. Şairin nəşini Azərbaycana gətirən nümayəndə heyətimizlə birlikdə Vətənə qayıtmağa hazırlaşırdıq. Səfərə çıxmağımıza bir saat qalmış Ulu Öndər telefonla bildirdi ki, Cavidin nəşini Yerevandan deyil, Bakıdan gətirin. Cavid Bakıdan gedib, Bakıdan da doğma Naxçıvana "dönməlidir." Cavidi hər kəs böyük hörmətlə qarşıladı. Onun xatirəsinə Naxçıvanda ucaldılan möhtəşəm məqbərədə uyuyan cavidlər ailəsinə məhəbbət sonsuzdur. Naxçıvan MR Ali Məclisinin Sədri Vasif Talıbovun rəhbərliyi ilə ulu şairin xatirəsi yad edilir, "Cavid günləri" keçirilir.

Filologiya elmləri doktorları Cəlal Qasımov, Nizami Muradoğlu Cavid yaradıcılığından danışaraq onun əsərlərini üç mərhələ üzrə təhlil etdilər. Cavidi tarix yazan və tarixdə yaşayan şair adlandıran natiqlər bildirdilər ki, nə qədər əzab-əziyyət çəkib, zillətlər görsə də ideyalarından dönməyən Cavidin Vətənə qayıdışı türkçülüyün dönüşü idi: "Deyirlər məzarı yoxdur Cavidin, Cavid ölməyib ki, məzarı ola" sözləri ona verilən əbədiyaşarlıq simvoludur.

Yeni Azərbaycan Partiyası Yasamal rayon təşkilatının sədri Tağı Əhmədov çıxışında bildirdi ki, Cavid yaradıcılığına hörmət həmişə yüksək olub. Amma ona ən böyük dəyər də, qiymət də ulu öndər Heydər Əliyev, Prezident İlham Əliyev tərəfindən verilib:

- Ulu şairə, Cavid irsinin ən böyük tədqiqatçısı onun qızı Turan xanıma göstərilən diqqət bütünlükdə klassik ədəbiyyata verilən dəyərdir. Oktyabr ayı bütünlükdə Cavidlər ailəsi üçün əlamətdar olub. Şairin yeganə oğlu, bu il 100 illik yubileyi keçirilən Ərtoğrul, qızı Turan xanım da məhz bu ayda dünyaya gəliblər. Tanrı sevgisini oxucusuna çatdıran Cavid gözəlliyin insanlara verdiyi dəyəri fəlsəfi baxışları, təfəkkürü ilə ilahiləşdirir. Cavidi başqalarından fərqləndirən cəhət onun həyata baxışı, ən adi məqamlarda belə insanlıq naminə çalışmağın vacibliyini, başqalarına mərhəmət göstərməyi, bağışlamağı bacarmağı sözün qüdrəti ilə çatdırmasıdır.

Hüseyn Cavidin Ev-Muzeyinin direktoru, filologiya elmləri doktoru Gülbəniz Babaxanlı çıxış edərək sözlə fəlsəfənin qüdrətini yaradıcılığında birləşdirən şairin əsərlərindən ibarət çoxcildliyin oxuculara təqdimatını cavidsevərlərə ən böyük hədiyyə adlandırdı.

Tədbirdə şairin şeirləri səsləndirildi, sözlərinə yazılmış mahnılar ifa olundu.

**Xuraman İsmayılqızı,**

**Şəmsiyyə Əliqızı,**

***"İki sahil"***